The War College of the Armed Forces,
Republic of Azerbaijan


UNIVERSITY
OF WARMIA AND MAZURY
IN OLSZTYN

# THE SECOND KARABAKH WAR AS A NEW GENERATION WARFARE

## THE PROCEEDINGS OF THE INTERNATIONAL SCIENTIFIC-PRACTICAL CONFERENCE DEDICATED TO THE ANNIVERSARY OF THE VICTORY ACHIEVED IN THE 44 DAY PATRIOTIC WAR

**October 21–22, 2021**


**Baku, Azerbaijan**

# The War College of the Armed Forces, Republic of Azerbaijan

# THE SECOND KARABAKH WAR AS A NEW GENERATION WARFARE

## THE PROCEEDINGS OF THE INTERNATIONAL SCIENTIFIC-PRACTICAL CONFERENCE DEDICATED TO THE ANNIVERSARY OF THE VICTORY ACHIEVED IN THE 44 DAY PATRIOTIC WAR

**October 21–22, 2021**

**Baku, Azerbaijan**

**Azərbaycan Respublikası**
**Silahlı Qüvvələrinin Hərbi Akademiyası**

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ YENİ NƏSİL MÜHARİBƏ KİMİ

## 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ QAZANILAN QƏLƏBƏNİN İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSIN MATERİALLARI

**21–22 oktyabr, 2021-ci il**

**Bakı, Azərbaycan**

# TƏSVİRİ SƏNƏTİMİZDƏ AZƏRBAYCAN–YAPONİYA MULTİKULTURAL ƏNƏNƏLƏRİNİN ƏKSİ

**Emil Ağayev**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində*
*Azərbaycan Dövlət Pedaqoji kolleci*
E-mail: emilaghayev93@mail.ru

**Açar sözlər:** Azərbaycan, Yaponiya, multikulturalizm, təsviri sənət, ənənə.

Multikultural ənənələrə daima dəyər verən ölkələrdən biri də Azərbaycandır. Bu dəyərlər bütün sahələrə, xüsusilə incəsənətimizin müxtəlif növlərinə öz təsirini göstərməkdədir. Ölkəmizin tanınmış rəssamları təsviri sənət tariximizin bütün mərhələlərində multikultural ənənələrə sadiq qalmışlar. Rəssamlarımızın xarici ölkələrə ezamiyyətə getməsi, həmin yerlərin adət-ənənəsi, geyim estetikası, tarixini öyrənməsi bütün deyilənlərə bariz nümunədir. Belə ölkələrdən biri öz tarixi mədəniyyəti ilə seçilən gündoğan Yaponiyadır. Multikultural baxışlar kontekstində Azərbaycan–Yaponiya adət-ənənələri, memarlıq, musiqi bir sözlə incəsənət tarixi inkişaf etmiş, digər mədəniyyətlərə də öz təsirini göstərmişdir.

Yaradıcılığında qadın mövzusuna geniş yer verən Maral Rəhmanzadə xarici ölkələrə həsr edilən silsilə əsərlərində də yaradıcılıq ənənəsini pozmur. “Yapon qızı” (1970) (Şəkil 1) əsərində uyğunlaşan rəng qamması ilə seçilən gənc bir yapon xanım diqqət mərkəzindədir. Ənənəvi yapon ikonoqrafik tipajına portretdə riayət edilmişdir. Kompozisiyada qızın saçlarında, qara rəngin axıcılığında isə quaş texnikasından istifadə edilmişdir. Yapon qızı lirik baxışları ilə tamaşaçının diqqətini cəlb edir.



**Şəkil 1. Maral Rəhmanzadə “Yapon qızı” (1970)**
**(karton, quaş)**

Yaradıcılığında Yaponiya mövzusu ilə xüsusilə seçilən Elbəy Rzaquliyev gündoğan ölkənin rəng kodlarından daha çox istifadə etmişdir (Şəkil 2). 1962-ci ildə Yaponiya silsiləsinə daxil olan "Yağış" əsərində üç yapon gənc xanım milli ruhda işlənilmişdir. Sulu boya texnikası yağışın və gündoğan ölkənin estetik baxışlarını açıqlayır. Yaponlar həmişə incəsənətə dəyər vermişlər. Bütün bu fikirləri xalq rəssamı gənc qızların rəsm dərslərinə yiyələnməsini "Emalatxana" adlandırdığı kompozisiyasında təqdim etmişdir. İnteryerdə yapon qızların saç, geyim və baxışları işıq-kölgə ilə eyniləşdirilmişdir. Elbəy Rzaquliyev bu silsiləyə daxil olan əsərlərində milli kimono geyimini üzərindəki rəngarəng ornamentlərlə vurğulayır. Gündoğan ölkənin təbiət simvolunu da sənətkar unutmur. Bu baxımdan perspektiv nəzəriyyənin üstünlük təşkil etdiyi "Fudziyama dağı" əsərini də qeyd etməliyik.



**Şəkil 2. Elbəy Rzaquliyev "Yaponiya. Ana" (1962)**
**(kağız, sulu boya)**

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Əfəndiyev, T. Elbəy Rzaquliyev / T.Əfəndiyev. – Bakı: Sərvət, Şərq-qərb 2013, – 104 s.
2. Ömərov, V. Azərbaycan-Yaponiya mədəni əlaqələri // "Səs" qəzeti. – 2014, 7 mart. – s. 15.